

**Hörmətli həmkarlar!**
**Əziz dostlar!**

AMEA-nın akademik Ə.M.Quliyev adına Aşqarlar Kimyası İnstitutunun kollektivi və rəhbərliyi adından Sizi "Azərbaycan neft təsərrüfatı" jurnalının təsis edilməsinin 120 illiyi münasibətilə səmimi qəlbdən təbrik edirəm.

1898-ci ildə Bakı Neft Sənayeçiləri Qurultayları Şurası tərəfindən təsis edilən, ilk sayı 10 yanvar 1899-cu ildə rus dilində işıq üzü görən və "Neftyanoe Delo" adlandırılan qəzet-jurnal nəinki Bakıda, bütövlükdə dünyada neft sənayesinin nailiyyətlərinin hərtərəfli işıqlandırılmasında əvəzsiz rol oynayan ilk sahə mətbu orqanlarından birinə çevrildi. 1920-ci ilin may ayından "Azərbaycan neft təsərrüfatı" adlandırılan jurnalda bu gün artıq üç dildə: azərbaycan, rus və ingilis dillərində dərc olunan materiallar neft sahəsi üçün çoxsaylı, tanınmış, yüksəkixtisaslı kadrlar nəslinin yetişdirilməsində, neft sənayesinin mütərəqqi inkişafında böyük rol oynayır.

Neft sənayesi sahəsi üzrə ən qocaman mətbu orqan olan bu jurnal böyük nüfuz qazanaraq, nəinki respublikamızda, eləcə də onun hüdudlarından kənarda aktual, yüksək peşəkarlıqlı elmi-texniki və istehsalat informasiya mənbəyi kimi tanınmışdır. 120 illik fəaliyyəti ərzində jurnal öz səhifələrində neft sənayesinin nailiyyətləri və problemlərini əks etdirən olduqca sanballı materiallar toplamış, özünəməxsus kiçik bir ensiklopediya rolunu oynamışdır.

Jurnalın müəllif kollektivini neft sənayesi və ona yaxın sahələrdə öz intellektual potensialını sərf edən milli və xarici mütəxəssislər, mühəndis və alimlər təşkil edir.

Jurnalın fəaliyyəti dövründə onun səhifələrində çox tanınmış alimlər, mütəxəssislər və istehsalat rəhbərlərinin elmi-texniki məqalələri dərc olunmuş və bu gün də olunmaqdadır.

Bütün fəaliyyəti ərzində jurnala milli neft sənayesinin fəxri sayılan baş redaktorlar – İ.M. Əsədov, Ə.C. Əmirov, M.K. Seyid-Rza, A.X. Mirzəcanzadə və başqa tanınmış alimlər rəhbərlik etmişlər. Akademiklər İ.M. Qubkin və Y.H. Məmmədəliyev müxtəlif vaxtlarda jurnalın redaksiya heyətinin üzvləri olmuşlar.

Hörmətli İbrahim müəllim! "Azərbaycan neft təsərrüfatı" jurnalının əlamətdar yubileyi münasibətilə Sizi, redaksiya heyətini və kollektivinizi bir daha təbrik edir, möhkəm cansağlığı, xoşbəxtlik, fəaliyyətinizdə yeni-yeni müvəffəqiyyətlər arzulayıram.

**Aşqarlar Kimyası İnstitutunun direktoru,**
**akademik Vaqif Fərzəliyev**